# Zəfər tarixinin xronikası



## 10 oktyabr 2020-ci il

**Həmin gün:**

– Azərbaycan Prezidenti İlham Əliyev “Sky News” telekanalına müsahibəsində Ermənistanla mümkün danışıqların şərtlərini açıqlayıb: “Ermənistanın dəstəkləməkdən imtina etdiyi əsas prinsiplərdə torpaqların açıq-aydın necə geri qaytarılacağı göstərilir. Birinci mərhələdə Dağlıq Qarabağın cənub-şərq tərəfində yerləşən beş Azərbaycan rayonu, sonra Dağlıq Qarabağ və Ermənistan arasında yerləşən iki Azərbaycan rayonu qaytarılmalıdır. Sonra azərbaycanlılar Dağlıq Qarabağa qayıdırlar. Dağlıq Qarabağda 25 faiz azərbaycanlı əhali olub, onların da hüquqları təmin edilməlidir. Onlar yaşadıqları yerə - qədim Şuşa şəhərinə və digər yerlərə qayıdırlar və biz normal kommunikasiyaları bərpa edirik. Biz xalqlar arasında təmasları bərpa edirik. Bu, vasitəçilərin planıdır və biz bunu dəstəkləyirik”;

– Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev keçirdiyi mətbuat konfransında deyib: “Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən çıxarılmasının vacibliyi barədə reallığı anlamalıdır. Təəssüf ki, indiyədək bunu dərk etmir”;

– Xarici İşlər naziri Ceyhun Bayramov ilə Türkiyə Xarici İşlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışığı olub. C.Bayramov Azərbaycan ilə Ermənistan arasında humanitar məqsədlə müvəqqəti atəşkəsin elan olunduğunu, mahiyyət etibarilə danışıqların aparılması və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasına dair işğalçı ölkəyə sonuncu şansın verildiyini qeyd edib;

– Xarici İşlər naziri Ceyhun Bayramov keçirdiyi mətbuat konfransında deyib: “Ermənistan ciddi şəkildə öz öhdəliklərini yerinə yetirməli, danışıqlar prosesinə tam ciddiyyəti ilə qayıtmalı və bununla bağlı real addımlar atmalıdır”.

### Ermənistan ordusunun yaşayış məntəqələrinə hücumu nəticəsində 31 nəfər dinc sakin həlak olub

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən oktyabrın 10-da saat 12:00-dək mülki əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını açıqlayıb.

Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 31 nəfər həlak olub, 171 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 1137 ev, 45 çoxmənzilli yaşayış binası və 146 mülki obyekt yararsız vəziyyətə düşüb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqda yerləşən şəhərləri və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

### Ermənistan dinc əhaliyə qarşı qadağan olunmuş silahlardan istifadə edir

Ermənistan silahlı qüvvələri sentyabrın 27-dən başlayaraq, azərbaycanlı dinc əhaliyə qarşı qadağan olunmuş hərbi sursatlardan istifadə edib. Onların arasında kaset sursatlar və ağ fosforlu mərmilər də var. Bu silahların mülki əhaliyə qarşı istifadə olunması beynəlxalq humanitar hüquq prinsiplərinə ziddir.

Bununla bağlı Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin keçirdiyi mətbuat konfransında bildirilib ki, aparılan humanitar fəaliyyət nəticəsində 1 ədəd aviabomba (OFAB-100), 23 ədəd 300 millimetrlik 9M528 raketi (Smerç), 1 ədəd 9M528 raketinin mühərrik və döyüş başlığı hissələri, 1 ədəd 300 millimetrlik 9M55K raketinin döyüş başlığı, 35 ədəd top mərmisi, 12 ədəd tank əleyhinə reaktiv raketlər, 1 ədəd raketin təzyiq akkumulyatoru (9D180), 1 ədəd tank əleyhinə idarə edilən raket aşkar olunub. İndiyədək tərkibində partlayıcı maddə olan 707 ədəd sursat aşkarlanıb.




Kaset sursatlarından mülki ərazilərə qarşı istifadə olunması beynəlxalq humanitar hüquq prinsiplərinə ziddir. Eləcə də mülki obyektlərin atəşə tutulması nəticəsində zərərçəkən şəxslər var. İndiyədək 598 ədəd kaset sursatı aşkar edilib.

### İnsanlar göstərdiyi qətiyyətə, gördüyü işlərə görə ölkə Prezidentinə minnətdarlıqlarını bildirirlər

Azərbaycan Ordusunun cəbhədə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr vurması, bir sıra yaşayış məntəqələrinin düşməndən təmizlənməsi, habelə digər qələbələr vətəndaşlarımız, xaricdə yaşayan soydaşlarımız tərəfindən böyük sevinclə qarşılanır. Onlar qürur hisslərini Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə yazdıqları məktublarda ifadə edirlər.

Həmin məktublardan birini Rusiyanın Vladimir şəhərindən Təranə Xəlilova göndərib: “Əziz Prezidentimiz! Sizə olan minnətdarlığımı sözlə ifadə etməkdə çətinlik çəkirəm. Sizin gördüyünüz işin dəyəri olduqca böyükdür. Bu günlərdə özümü çox xoşbəxt hiss edirəm. Bu Sizin sayənizdədir. Allah Sizi, bütün ailə üzvlərinizi qorusun. Mən Qarabağ bölgəsində doğulmasam da, bütün bu illər ərzində oranın işğal altında olması daim səadətli anlarıma kölgə salıb. Allah Sizin kölgənizi Azərbaycanın başı üzərindən əskik etməsin. Sizə nə qədər təşəkkür etsəm, yenə də azdır. Çox sağ olun. Nə yaxşı ki, varsınız”.

Almaniyanın Köln şəhərindən Rəşad Quliyev: “Hörmətli cənab Prezident! Sizin komandanlığınızla rəşadətli Azərbaycan Ordusunun əldə etdiyi üstünlüklər və qələbə xəbərləri Dünya Azərbaycanlıları Assambleyası üzvlərini də son dərəcə sevindirir. İllərdir həyata keçirdiyiniz uğurlu xarici siyasətiniz bu gün öz bəhrəsini verir. Biz də dünya azərbaycanlıları olaraq bu siyasətinizi dəstəkləyirik və bu yolda üzərimizə düşən öhdəlikləri layiqincə yerinə yetirməyə çalışırıq”.

***“Xalq qəzeti”***